*Salmanova Şəfa*
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***

# QLOBALLAŞAN DÜNYADA İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN AFFİKSLƏR HESABINA ZƏNGİNLƏŞMƏSİ

**Açar sözlər:** *affikslər, prefikslər, infikslər, suffikslər*
**Keywords:** *affixes, prefixes, infixes, suffixes*
**Ключевые слова:** *аффиксы, префиксы, инфиксы, суффиксы*

Qloballaşma cəmiyyətin və insan fəaliyyətinin hər bir sahəsinə nüfüz etmişdir. Bu proses özünü insanlar arasında ünsiyyət vasitəsi olan dildə də göstərir. Hal-hazırda qloballaşmanın əsas göstəricisi inteqrasiya və beynəlxalq ünsiyyət hesab olunur. Beynəlxalq ünsiyyət vasitəsi kimi İngilis dili yayılma əhatəsinə görə digər dillərdən üstünlük təşkil edir. Buna səbəb İngilis dilinin nüfuzunun sürətlə artması və dünyanın ümumi bir kommunikasiya vasitəsinə ehtiyacının olmasıdır.

Dilin lüğət tərkibinin inkişafı prosesi hər bir dilin daxili inkişaf qanunlarına uyğun şəkildə baş verir. İngilis dilinin lüğət tərkibi leksik, morfoloji, sintaktik yollarla zənginləşir. Morfoloji yol dedikdə, burada söz köklərinə şəkilçilər (affikslər) artırmaqla yeni düzəltmə sözlərin yaranması başa düşülür. Məsələn: regular-irregular, friend-friendship, comfortable-uncomfortable və s.

Affikslər isə sözdüzəldici və sözdəyişdirici olmaqla iki qrupa ayrılır. İngilis dilində sözdüzəldici şəkilçilərin üç növü-prefiks, suffiks və infiks növləri mövcuddur. Prefikslər, infiks və suffikslər söz yaradıcılığında böyük əhəmiyyətə malikdir. Sözlərin əvvəlinə artırılaraq yeni sözlər yaranması prefikslər vasitəsi ilə mümkündür. Happy-unhappy, like-dislike ve s. H.Marchanda görə, "Prefikslər sərbəst morfemlərin əvvəlinə əlavə olunan bağlı morfemlərdir" [1]. İngilis dilinə var olan əsl ingilis köklü prefikslər alınma prefikslərə nisbətən azlıq təşkil edir. Buna səbəb ingilis dilinin özündə də müxtəlif dillərdən alınma prefikslərin mövcud olasıdır: anti-, circum-, contra-, re-, post, ultra-, semi- və s.

Suffikslər isə sözlərin sonuna əlavə olunaraq yeni sözlər yaradır. Suffikslərlə prefikslər arasındakı yeganə fərq təkcə onların sözdə əlavə olunduğu yerdə yox, həm də əlavə olunduqları sözdən başqa nitq hissəsi yarada bilməsidir. Suffikslər artırıldığı sözdən nəinki yeni mənalı söz, həm də başqa nitq hissəsinə mənsub olan söz yarada bilər. Məsələn fog n.-foggy. Adj ; Power n. - powerful adj.

Müasir İngilis dilində infikslər çox az rast gəlinir. Onlar qeyri-məhsuldar affikslər hesab olunur və demək olar ki, işlədilmir. İnfikslərə bir neçə misal çəkə bilərik, ismin cəm formasını düzəldən s bəzi sözlərə artırılır. Sözün sonuna da mənaya uyğun başqa bir söz əlavə olunur. *passers-by* and *mothers-in-law*" [3].

**Ədəbiyyat:**

1. Hans Marchand. "Categories and Types of Present-Day English Word Formation"-1969 ps-129.
2. Смирницкий "Лексикология английского языка", Москва, 1982, стр. 34-38.
3. R.L. Trask "The Penguin Dictionary of English Grammar," 2000

*Şabanova Aysel*
***Azərbaycan Dillər Universiteti***

# İNGİLİS DİLİNDƏ İŞLƏNƏN MULTİKULTURAL SƏCİYYƏLİ FRAZEOLOGİZMLƏR

**Açar sözlər**: *ingilis frazeologiyası, multikultural səciyyə, frazeologizm*
**Key words:** *english phraseology, multicultural features, phraseologism*
**Ключевые слова:** *английская фразеология, мультикультурный характер, фразеологизм*

Beynəlxalq aləmdə ingilis dilinin hazırki mövqeyi onu əsas ünsiyyət dili kimi qiymətləndirilməsinə zəmin yaradır. İngilis dilinin bu sahədə çoxillik liderliyi bu dilin öyrənilməsini labüd edir.